**Bakı Biznes Universiteti**

**Bakı Biznes Universitetinin**

**2019-2023-cü illər üçün**

# ELMİ-TƏDQİQAT STRATEGİYASI

**Elmi Şuranın 27.12.2018-ci il tarixli qərarı ilə təsdiq edilmişdir (Protokol №04 ).**

**Strategiyanın məzmunun əsasları**

Strategiya Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarlarına, elmi-tədqiqat sahəsində mövcud olan qanunvericiliyə, dövlət proqramlarına, Azərbaycan Respublikası Təhsil Nazirinin əmrlərinə, xarici universitetlərin təcrübəsinə, Bakı Biznes Universitetinin 2019-2023-cü illər üzrə Strategiyasına və Universitetin Nizamnaməsinə uyğun hazırlanmışdır.

**Strategiyanın qəbul edilməsinin əsas məqsədi**

Elmi-tədqiqat işlərinin yeni prinsiplər əsasında qurulması və beynəlxalq standartlara uyğunlaşdırılması.

**Missiya**

Təhsilin və elmi tədqiqat fəaliyyətinin keyfiyyətini beynəlxalq standartlara uyğunlaşdırmaqla əmək bazarı üçün yüksək kompetensiyalı kadrları yetişdirmək.

**Gələcəyə baxış**

Tədrisin və elmi tədqiqat fəaliyyətinin səviyyəsini artırmaqla, əmək bazarının tələblərinə və müasir standartlara cavab verməklə ölkəmizin universitetləri arasında Bakı Biznes Universitetinin rəqabət qabiliyyətliliyinin artırılması.

**Bakı Biznes Universitetinin 2019-2023-cü illəri əhatə edən Elmi-Tədqiqat Strategiyası aşağıdakı 5 istiqamətdən ibarətdir:**

1. Universitetdə davamlı tədqiqat mühitinin yaradılması, tədqiqat fəaliyyətinin stimullaşdırılması, elmi-tədqiqat işlərinin səmərəlliyinin yüksəldilməsi;
2. Doktorantura və magistratura səviyyələrində təhsil alan gənc tədqiqatçıların tədqiqat bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi;
3. Elmi-tədqiqat fəaliyyəti sahəsində yerli və beynəlxalq əlaqələrin genişləndirilməsi;
4. Elmi tədqiqat fəaliyyətinin nəticələrinin tədris prosesinə və əmək bazarına inteqrasiyasının təmin edilməsi;
5. Universitetin elmi nəşri olan “Audit” jurnalının beynəlxalq xülasələndirmə bazalarına daxil edilməsi prosesinin həyata keçirilməsi.

## STRATEGİYANIN İSTİQAMƏTLƏRİNƏ UYĞUN VƏZİFƏLƏR

**İstiqamət 1: Universitetdə davamlı tədqiqat mühitinin yaradılması, tədqiqat fəaliyyətinin stimullaşdırılması və elmi-tədqiqat işlərinin səmərəlliyinin yüksəldiməsi.**

1.1.Universitetin 3 illik elmi-tədqiqat istiqamətini və illik elmi tədqiqat mövzularını cəmiyyətin və milli iqtisadiyyatın müxtəlif sahələrinin tələblərinə uyğun formalaşdırılması, təsdiqi və yerinə yetirilməsini təmin etmək.

1.2. Tədqiqatla məşğul olan akademik heyətin ehtiyaclarına uyğun davamlı peşəkar təlimlərin təşkil olunmasını təmin etmək.

1.3. Tədqiqatçıların beynəlxalq elmi jurnallara əlçatalığının təmin edilməsi üçün beynəlxalq elektron resurslara çıxışları genişləndirmək və beynəlxalq indeksli jurnallarda professor-müəllim heyətinin elmi məqalələrin dərc olunmasının təşviq edilməsi.

1.4. Professor-müəllim heyətinin akademik elektron bazalarında şəxsi səhifələrinin yaradılması.

1.5. Müəlliflik hüquqlarının qorunması məqsədilə antiplagiat sistemin qurulmasını təmin etmək.

1.6. Universitetdə müxtəlif yerli və beynəlxalq səviyyələrdə elmi tədbirlərin (konfranslar, simpoziumlar, elmi seminarlar, dəyirmi masalar və s.) müntəzam olaraq keçirilməsini təmin etmək.

1.7. Elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması məqsədilə - əmək haqqının differensiallaşdırması mexanizminin hazırlanması.

1.8. Universitetin kitabxana fondunun daimi yenilənməsi, kitabxana xidmətinin keyfiyyətini yüksəltmək məqsədilə fəaliyyətinin müasirləşdirilməsi və əlçatanlığının təmin edilməsi, qanunvericilik əsasında fəaliyyət göstərən kitabxana birliklərinə, konsorsiumlara daxil olmaq.

1.9. İllik elmi-tədqiqat istiqamətinə uyğun müntəzəm olaraq kafedralarda elmi-seminarların təşkil olunması.

1.10.Təhsilverənlərin və təhsilalanların elmi-tədqiqat prosesinə fəal cəlb edilməsi yolu ilə elm və təhsilin inteqrasiyasını təmin etmək;

1.11.Gənc tədqiqatçıları elmi-tədqiqata cəlb etmək (tələbələrin TEC-ə üzv olmağının əlçatanlığının təmin edilməsi, müxtəlif elmi tədbirlərdə iştirakının təmin edilməsi, professor-müəllim heyəti ilə tədqiqat üzərində birgə işləmələrini təşviq etmək).

1.12.Gənc tədqiqatçıların respublikada və xaricdə təşkil edilən bilik yarışmalarında, konfranslarda, dəyirmi masalarda, disput və forumlarda iştirakını təmin etmək.

**İstiqamət 2. Doktorantura və magistratura səviyyələrində təhsil alan gənc tədqiqatçıların tədqiqat bacarıqlarının formalaşdırılması, inkişaf etdirilməsi və peşəkar kadr hazırlığının həyata keçirilməsi istiqamətində fəaliyyətin qurulması.**

2.1.Magistratura pilləsində tədqiqat yönümlü fənlərin tədrisini təmin etmək.

2.2.Doktorant və magistrantların tədqiqat mövzularının əmək bazarının tələblərinə uyğun təsdiqlənməsini və onların müxtəlif müəssisələrdə tədqiqat aparılmalarını təmin etmək.

2.3.Doktorantura səviyyəsində tədqiqat yönümlü tədrisin qurulmasını həyata keçirtmək.

2.4.Doktorantların müxtəlif beynəlxalq layihələr çərçivəsində tədqiqat yönümlü layihələrdə iştirak etməyə cəlb etmək.

2.5.Magistrant və doktorantların apardıqları tədqiqat çərçivəsində elmi məqalələrinin nəşr edilməsinə dəstək göstərmək.

2.6.Doktorantların apardıqları elmi-tədqiqat işlərinin qrant layihələri formasında işlənilməsini həyata keçirtmək.

2.7.Doktorant və dissertantların universitetdə tədris prosesinə cəlb olunmalarını və işlə təmin olunmaları siyasətini həyata keçirtmək.

2.8.Doktorantları elmi sahədə keçirilən müxtəlif təlimlərə, konfranslara və xarici elmi vebinarlarda iştirak etməyə təşviq etmək.

**İstiqamət 3: Elmi-tədqiqat fəaliyyəti sahəsində yerli və beynəlxalq əlaqələri genişləndirmək.**

3.1.Elmi-tədqiqat sahəsində yerli və beynəlxalq əməkdaşlıqların genişləndirilməsini həyata keçirtmək.

3.2.Magistrantların elmi-tədqiqat təcrübələrinin müxtəlif yerli müəssisələrdə keçmələrini təmin etmək məqsədilə müqavilə əsaslı əməkdaşlığın qurulmasını həyata keçirtmək.

3.3.Magistrant və doktorantların elmi-tədqiqat bacarıqlarını inkişaf etdirmək məqsədilə onların xarici partnyor universitetlərə göndərilməsini həyata keçirtmək.

3.4. Universitetdə keçirilən elmi tədbirlərə yerli və xarici təhsil müəssisələrindən nümayəndələrin cəlb edilməsini həyata keçirtmək.

3.5.Universitetin elmi nəşri olan «Audit» jurnalına müəllif qismində mütəmadi olaraq xaricdən tədqiqatçıların cəlb edilməsi.

**İstiqamət 4: Elmi tədqiqat fəaliyyətinin nəticələrinin tədris prosesinə və əmək bazarına inteqrasiyasını təmin etmək.**

4.1. Elmi-tədqiqat fəaliyyətinin tədris prosesinin ayrılmaz tərkib hissəsi kimi qəbul edilməsi və tədrisə inteqrasiyasının təmin edilməsi (elmi-tədqiqat fəaliyyətinin nəticəsi kimi professor-müəllim heyəti tərəfindən tədris-metodiki vəsaitlərin hazırlanması və tədrisdə istifadə edilməsi).

4.2.Tədrisin keyfiyyətinin artırılması məqsədilə elmi-tədqiqat nəticələrinin nəzərə alınaraq mövcud olmayan fənn proqramlarının hazırlamasını, mövcud olan fənn poqramlarının təkmilləşdirilərək yenidən çap edilməsini və mühazirə mətnlərinin daim təkmilləşdirilməsini təmin etmək .

4.3. Universitetin tədris və tədqiqat fəaliyyətinin əmək bazarının tələblərinə uyğun həyata keçirilməsini təmin etmək.

4.4. Universitetin professor-müəllim heyətinin və doktorantlarının tədqiqat işlərinin nəticələrinin əmək bazarına inteqrasiyasını təmin etmək.

**İstiqamət 5: Universitetin elmi nəşri olan "Audit" jurnalının beynəlxalq xülasələndirmə bazalarına daxil edilməsini təmin etmək.**

5.1.Jurnalın texniki strukturunun beynəlxalq jurnal standartlarına uyğunlaşdırılması.

5.2. Jurnalın beynəlxalq standartlara uyğun internet səhifəsinin yaradılması.

5.3. Jurnalın redaksiya heyətinə xarici universitetlərdən tədqiqatçıların daxil edilməsini təmin etmək.

5.4. Dərc olunan məqalələrin rəqəmsal identifikatorunun (DOI) olmasının təmin edilməsi.

5.5.Jurnalın beynəlxalq indekslənmə və xülasələndirmə bazalarında qeydiyyatdan keçirilməsini təmin etmək.

5.6. Doktorant və dissertantların məqalələrinin "Audit" jurnalında dərc edilməsinin əlçatanlılığının təmin edilməsi.

## Rəsmi istinadlar

1. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 saylı Fərmanı əsasında təsdiq edilmişdir - https://e-qanun.az/framework/34254
2. Ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin təşkili və planlaşdırılması haqqında Əsasnamə - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 6 noyabr tarixli 242 nömrəli qərarı ilə təsdiq edilmişdir - https://frameworks.e-qanun.az/20/c_f_20842.html
3. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası - Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmişdir - https://e-qanun.az/framework/25029
4. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası - Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir - https://president.az/az/articles/view/9779
5. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu- 19 iyun 2009-cu il № 833-IIIQ - https://e-qanun.az/framework/18343
6. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı” - Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir - https://e-qanun.az/framework/29145
7. Azərbaycan Respublikasının “Elm haqqında“ Qanunu - 14 iyun 2016-cı il № 271-VQ- https://e-qanun.az/framework/33488
8. “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında“ Azərbaycan Respublikasının Qanunu. 5 iyun 1996-cı il № 115-IQ - https://e-qanun.az/framework/4167
9. “Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları” - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli, 129 nömrəli qərarı ilə təsdiq edilmişdir - https://e-qanun.az/framework/19800
10. “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə”- 20 aprel 1998-ci il- https://edu.gov.az/upload/file/disertasiya-mudafiesi-haqda-esasname.pdf
11. “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları” - Azərbaycan Respublikası Nazirlər Kabinetinin2010-cu il 12 may tarixli, 88 nömrəli qərarı ilə təsdiq edilmişdir - https://e-qanun.az/framework/19534
12. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” – Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir - https://e-qanun.az/framework/40711
13. “Ali təhsil müəssisəsinin kitabxanasının Nümunəvi Əsasnaməsi”nin və “Ümumi təhsil müəssisəsinin kitabxanasının Nümunəvi Əsasnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 iyul tarixli 266 nömrəli qərarı - https://e-qanun.az/framework/33259

## Qeyri-rəsmi istinadlar


1. Evaluation Report of Mykolas Romeris University. Institutional Evaluation Programme, 2013 - https://www.iep-qaa.org/downloads/publications/mru%20iep%20final%20report.pdf
2. Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area (ESQ). 2015 - https://www.enqa.eu/wp-content/uploads/2015/11/ESG_2015.pdf
3. Research Strategy of University of Bristol for 2017-2023 https://www.bristol.ac.uk/media-library/sites/university/documents/governance/RESEARCH%20STRATEGY%202017-2023%20FINAL%20APPROVED.pdf
4. Research Strategies at Universities -University of Gothenburg . Magnus Gunnarsson/Division for analysis and evaluation. REPORT 2012:01 - https://medarbetarportalen.gu.se/digitalAssets/1364/1364330_rapport2012-01_research-strategies.pdf